**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELYASİYA ŞURASI**

**Q Ə R A R**

**№ 1**

**Bakı şəhəri** **23 may 2019-cu il**

Apelyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apelyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə İsmət Hüseyn oğlu Babayevin Tovuz Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi vəzifəsinin tutulması üçün 2019-cu il aprelin 29-da keçirilən dövlət qulluğuna qəbul üçün müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

İsmət Hüseyn oğlu Babayev Tovuz Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2019-cu il 28 fevral tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2019-cu il aprelin 29-da Dövlət Statistika Komitəsi aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyev, Dövlət İmtahan Mərkəzinin Yoxlama-ölçmə materiallarının işlənməsi şöbəsinin böyük məsləhətçisi Rövşən Əsədov və müstəqil ekspert Bulud Sadıqovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Babayev İsmət Hüseyn oğluna müsahibə komissiyasının üzvlərindən Q.Əliyev 20, R.Əsədov 12, B.Sadıqov isə 15 bal vermiş nəticədə iştirakçı 15,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasına 02.05.2019-cu il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apelyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi R.Əsədovun rəyinə əsasən namizədin nəzəri və qanunvericilik biliklərinin tətbiqi bacarığı orta səviyyədədir. Müstəqil ekspert B.Sadıqovun rəyinə əsasən namizədin nəzəri bilikləri və peşə hazırlığı zəif, ümumi dünyagörüşü isə qənaətbəxşdir. Namizəd vakant vəzifə üçün zəruri olan keyfiyyətlərə malikdir. Müsahibə komissiyasının digər üzvü Qasım Əliyev bildirmişdir ki, namizəd onunla keçirilən müsahibə zamanı ümumi dünyagörüşü və peşə hazırlığı ilə bağlı verilən sualların xeyli hissəsini düzgün cavablandırmışdır. Eyni zamanda, namizədin statistika sistemindəki iş təcrübəsini (müddətli əmək müqaviləsi üzrə) nəzərə alaraq, onu Tovuz Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi vəzifəsinə uyğun hesab etmək olar.

Yuxarıda göstərilənlər və Apelyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apelyasiya Şurası **qərara aldı**:

1. Şikayət təmin edilsin, Babayev İsmət Hüseyn oğlunun Tovuz Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi vəzifəsinin tutulması üçün 2019-cu il aprelin 29-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apelyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**